**UOT 316.33**
**https://doi.org/10.30546/ifs.2025.2(45).0108**

# QLOBAL İQLİM DƏYİŞİKLİYİ VƏ EKOLOJİ REALLIQLAR (AZƏRBAYCANIN EKOLOJİ TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ)

**Əliyar Orucov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
Fövqəladə Hallar Nazirliyinin Akademiyası, **Azərbaycan**
aliyar.orucov.77@gmail.com
https://orcid.orq/0009-0002-7998-207X

**Xülasə.** Ətraf mühitin çirklənməsi, münbit torpaqların deqradasiyası, təbii resurslardan qeyri-rasional istifadə, sənaye və məişət tullantılarının tələb olunan səviyyədə emal olunmaması ciddi ekoloji problem mənbəyidir. Məqalədə ekoloji problemlərin iqtisadi və sosial həyata göstərdiyi mənfi təsirlər və bunların ictimai sağlamlığa, cəmiyyətin maddi sərvətinə və dövlətin müvafiq qurumlarının fəaliyyətinə necə ciddi maneələr yaratdığı tədqiq olunub. Həmçinin məqalədə Azərbaycanda 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” nin elan olunması və COP29 beynəlxalq tədbirin keçirilməsi, onun regional və qlobal əhəmiyyəti şərh və təhlil edilmişdir.

**Açar sözlər:** Qloballaşma, qlobal təhlükəsizlik, milli təhlükəsizlik, ekoloji problem, nüvə təhlükəsizliyi, regional təhlükəsizlik, iqlim dəyişikliyi, sosial həyat, Əsrin müqaviləsi

## ГЛОБАЛЬНЫЕ ИЗМЕНЕНИЯ КЛИМАТА И ЭКОЛОГИЧЕСКИЕ РЕАЛЬНОСТИ (В КОНТЕКСТЕ ЭКОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА)

**Алияр Оруджев**

**Резюме.** Загрязнение окружающей среды, деградация плодородных земель, нерациональное использование природных ресурсов, а также недостаточная переработка промышленных и бытовых отходов являются одними из ключевых источников экологических проблем. В статье рассматриваются негативные последствия экологических вызовов для экономической и социальной жизни, а также анализируется каким образом они создают серьезные препятствия для общественного здоровья, материальных благополучия и устойчивого развития. Также в статье рассматривается значение объявления 2024 года в Азербайджане «Годом солидарности во имя зеленого мира», а также проведение международного мероприятия COP29, имеющего региональное и глобальное значение.

**Ключевые слова:** глобализация, глобальная безопасность, национальная безопасность, экологические проблемы, ядерная безопасность, региональная безопасность, изменение климата, социальная жизнь, «Контракт века»

## GLOBAL CLIMATE CHANGE AND ECOLOGICAL REALITIES (IN THE CONTEXT OF AZERBAIJAN'S ECOLOGICAL SECURITY)

**Aliyar Orujov**

**Abstract.** Pollution of the environment, degradation of fertile soils, irrational use of natural resources, and insufficient treatment of industrial and household waste constitute serious sources of ecological problems. The article examines the negative impacts of environmental issues on economic and social life, and how these problems significantly hinder public health, the nation’s material wealth, and the functioning of relevant state institutions. Additionally, the article analyzes and interprets the declaration of 2024 as the "Green World for Solidarity Year" in Azerbaijan and the hosting of the COP29 international event, highlighting its regional and global significance.

**Keywords:** globalization, global security, national security, environmental problem, nuclear safety, regional security, climate change, social life, Contract of the Century

**Giriş**

Dünya mədəniyyətinin və sivilizasiyaların XX əsrdə yüksəldiyi tərəqqi səviyyəsindən, XXI əsrin inkişafına töhfə verən, təkan olan maddi və mənəvi dəyərlərlə yanaşı, həlli son dərəcə çətin olan qlobal problemlər də miras qalmışdır. Müasir dövrdə ekoloji reallıq bütövlükdə bəşəriyyətin böhran durumda olduğunu göstərir. Dünya özünün elə bir tərəqqi səviyyəsinə yüksəlmişdir ki, təbiət-cəmiyyət sistemi ilə bağlı olan bütün proseslər qlobal xarakter almışdır. "Tarixən insanın təbiətlə münasibəti təbii resurslardan öz maddi və mənəvi tələbatlarının ödənilməsi üçün istifadəsi əsasında qurulmuşdur. Bu tip əlaqənin əsasında iqtisadi münasibət durur. Resurslardan istifadənin miqyası ətraf mühitin tükənməsi, çirklənməsi və dağılmasına səbəb oldu. Bu isə bir tərəfdən təbiətlə cəmiyyət arasında münaqişəli münasibət yaratdı, digər tərəfdən isə qarşılıqlı münasibətlərin yeni forması olan ekoloji münasibət formasının yaranmasına səbəb oldu. Bu münasibət formasının əsasında canlı orqanizmlərin, o cümlədən insanın təbii yaşayış mühitinin mühafizəsi durur" [7, s.320].

Qeyd edək ki, hazırki şəraitdə milli təhlükəsizliyin mühüm sahəsi olan ekoloji təhlükəsizlik, yalnız milli səviyyədə deyil, beynəlxalq səviyyədə də əməkdaşlıq tələb edən aktual bir məsələdir. Belə ki, ekoloji problemlər sərhəd tanımır və qlobal miqyasda bütün ölkələrə ciddi təsir göstərir. Ümumiyyətlə, ekoloji təhlükəsizlik məsələlərinin effektiv həlli üçün beynəlxalq əməkdaşlıq zəruridir. Beynəlxalq əməkdaşlıq xüsusilə enerji resursları sahəsində, ekoloji təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır. Enerji təhlükəsizliyi və təbii resursların idarə olunması, ölkələr arasında qarşılıqlı əlaqələrə təsir edir. Bərpa olunan enerji mənbələrinə yönəlmə və enerji səmərəliliyinin artırılması ekoloji təhlükəsizliyin qorunmasında əsas tədbirlərdən biridir. Bu məqsədlə, dövlətlər arasında enerji sahəsində əməkdaşlıq həm ekoloji təhlükəsizliyi, həm də iqtisadi dayanıqlılığı təmin etmək üçün vacibdir. Hazırki şəraitdə ekoloji problem dünyanın inkişaf etmiş dövlətlərinin hökumət başçılarının, Birləşmiş Millətlər Təşkilatının, bütün dünya alimlərinin və beynəlxalq qeyri-hökumət təşkilatlarının diqqət mərkəzində durur. BMT, o cümlədən beynəlxalq təşkilatlar və digər regional təşkilatlar, ekoloji təhlükəsizlik məsələləri ilə bağlı bir çox təşəbbüs həyata keçirməklə dünyanın diqqətini qlobal ekoloji problemlərin həllinə yönəltmişdir. Paris İqlim Sazişi kimi sazişlər iqlim dəyişikliyi ilə mübarizə və təbii sərvətlərin qorunması üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsini qarşıya məqsəd kimi qoyur. Eyni zamanda BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG) ekoloji təhlükəsizliyin təmin edilməsi üçün vacib məqsədlərdən biridir. Dünyada təbii ehtiyatlardan səmərəsiz istifadə və onun tükənməsi fonunda əhali sayının kəskin artması biosfer üçün ağır nəticələrə səbəb olmuşdur. Əhalinin yüksək sürətlə artımı isə iqtisadi inkişafın tələbatı ilə bağlı olaraq insanın təbiətə antropogen və texnogen təsirini xeyli gücləndirmişdir. İnsanın təbiətə təsirinin xeyli güclənməsi hazırda dünyada qlobal iqlim dəyişmələri problemini yaratmışdır. İqlim dəyişikliyi nədir? İqlim dəyişikliyi, qlobal istiləşmə və təbii ehtiyatların azalması ilə əlaqədar olaraq ciddi ekoloji fəsadlara yol açır. Həmçinin iqlim dəyişikliyi əkinçilik sahəsinə təsir edir, su ehtiyatlarını azaldır və kənd təsərrüfatı məhsullarının istehsalını çətinləşdirir. Temperaturun artması istiləşməyə, buzlaqların əriməsinə və dəniz səviyyəsinin yüksəlməsinə səbəb olur. Bütün bunlar nəticədə ekosistemləri dəyişdirir. İqlim dəyişikliyi ətraf mühit üçün ciddi potensial təhlükə hesab edilir. Bu hadisənin əsasında "istixana effekti" dayanır. İstixana effekti istiliyin qazlar tərəfindən səthdə toplanmasıdır. Bu effektin mahiyyəti aşağıdakı kimidir: atmosferdə xüsusi qazların müəyyən konsentrasiyası mövcuddur. Bu qazlar Yerdəki həyatın təmin edilməsində mühüm rol oynayır. Onlar istiliyi atmosferin aşağı qatlarında saxlayaraq isti iqlim şəraiti yaradır. Bu qazlar "istilik effekti yaradan qazlar" adlanır. Onların konsentrasiyasının artması Yer səthində müəyyən yüksəklikdə "qaz pərdəsi örtüyü"nün yaranmasına və atmosferin aşağı qatlarının temperaturunun xeyli artmasına səbəb olur" [7, s.158-159]. Bu isə öz növbəsində ekoloji təhlükəsizlik məsələsini aktuallaşdırır. Müasir dünya siyasətindəki proseslərin sürətli cərəyan etməsi və gələcək perspektivlərin proqnozlaşdırılmasının çətinliyi baxımından dövlətlərin ekoloji təhlükəsizlik siyasətinin öyrənilməsi qarşıda duran ən aktual məsələlərdəndir. Ekoloji təhlükəsizlik hazırki şəraitdə dünyada dövlətlərin və cəmiyyətlərin davamlı inkişafını təmin edən vacib amillərdən biridir. Təbiətə qarşı olan antropogen təsirlərin artması müşahidə olunan iqlim dəyişikliyi ilə yanaşı, dünyada təbii sərvətlərin tükənməsinə, bioloji müxtəlifliyin azalmasına da səbəb olmuşdur. Bu da öz növbəsində

dövlətlərin təhlükəsizliyini təhdid edən əsas amillərdən biridir. Ekoloji təhlükəsizlik ətraf mühitin qorunması ilə bərabər, həm də sosial-iqtisadi sabitlik, insan sağlamlığı və siyasi müstəqilliklə sıx bağlıdır. Milli təhlükəsizliyin mühüm sahəsi olan ekoloji təhlükəsizlik cəmiyyətin davamlı inkişafını təmin etmək üçün qorunmalıdır. Qeyd olunduğu kimi, ekoloji təhlükəsizlik, ətraf mühitin qorunması təbii resursların səmərəli istifadəsi və ekosistemlərin davamlılığı ilə bağlı olan geniş bir anlayışdır. Eyni zamanda ekoloji təhlükəsizlik yalnız təbiətin mühafizəsi demək deyil, həm də cəmiyyətin ekoloji rifahını qorumaq məqsədi güdür. Həmçinin bu anlayış təbii ehtiyatların davamlı istifadəsini, hava və su keyfiyyətinin qorunmasını, təbiətin müxtəlifliyinin müdafiəsini və ekosistem xidmətlərinin təmin edilməsini əhatə edir. Ekoloji Təhlükəsizliyin əsas elementləri aşağıdakılardır:

1. Təbii resursların qorunması: su, torpaq, hava və enerji kimi təbii resursların səmərəli istifadə edilməsi və tükənməsinin qarşısının alınması.

2. Bioloji müxtəlifliyin qorunması: hər bir ekosistemin və növün qorunması, təbiətdəki müxtəlif həyat formalarının azalmaması üçün müvafiq tədbirlərin görülməsi.

3. Ekosistemlərin sağlamlığının qorunması: ekosistemlərin sabitliyinin və sağlamlığının qorunması, ekosistem xidmətlərinin davamlı olmasının təmin edilməsi və həyata keçirilməsi.

4. İqlim dəyişikliyi ilə mübarizə: qlobal istiləşmə ilə əlaqədar olaraq, iqlim dəyişikliyinə qarşı mübarizə tədbirlərinin görülməsi və təsirlərin minimuma endirilməsi.

Təbiətlə insanların qarşılıqlı əlaqəsi birbaşa onların rifahına təsir göstərir. Ətraf mühitin çirklənməsi, təbii sərvətlərin məhdudlaşması və iqlim dəyişikliyi insanların həyatına ciddi şəkildə təsir göstərir. Su ehtiyatlarının, təmiz şirin suyun azalması və havanın çirklənməsi insanlarda müxtəlif xəstəliklərin yaranmasına yol açır.

Müasir dövrün qlobal proseslərinin genişlənməsi dövlətlərin milli təhlükəsizliyinin təmin olunması istiqamətində diplomatik münasibətlərin əhəmiyyətini göstərməkdədir. Milli təhlükəsizlik, qeyd olunduğu kimi, ölkənin ərazi bütövlüyünü, siyasi müstəqilliyini, iqtisadi rifahını və sosial sabitliyini qorumaq məqsədini daşıyırsa, ekoloji təhlükəsizlik bu təhlükəsizliyin mühüm sahəsi olmaqla, təbii resursların və ekosistemlərin qorunması, dövlətlərin sosial və iqtisadi inkişafını təmin etmək üçün vacibdir. Həmçinin ekoloji təhlükəsizliyin pozulması birbaşa milli təhlükəsizliyi təhdid edə bilər. Ekoloji təhlükəsizliyin milli təhlükəsizliyə aşağıdakı təsir imkanları vardır.

1. İqlim dəyişikliyi və milli təhlükəsizlik: iqlim dəyişikliyi, su ehtiyatlarının azalması, ərzaq məhsullarının qıtlığı və s. təbii fəlakətlər, ölkələrdə iqtisadi çətinliklər və sosial narazılıqlar yaratmaqla siyasi sabitliyi təhdid edir.

2. Təbii fəlakətlər və infrastruktur: zəlzələ, qasırğa, sel, torpaq sürüşməsi və s. digər təbii fəlakətlər, ölkənin fiziki infrastrukturunu dağıdır, bu da iqtisadi və sosial böhranın yaranmasına səbəb olur. Təbii fəlakətlərin qarşısının alınması və ekoloji təhlükəsizliyin qorunması, milli təhlükəsizliyin təməlini təşkil edən amillərdəndir.

3. İqtisadi və sosial sabitlik: təbii sərvətlərdən səmərəsiz istifadə ölkələrin iqtisadiyyatını zəiflədir, eyni zamanda ətraf mühitin çirklənməsinə səbəb olmaqla yanaşı, insanların sağlamlığına zərər vurur və cəmiyyətdə sosial gərginliyi artırır.

Bu baxımdan qloballaşma şəraitində dünya birliyinə inteqrasiya edən Azərbaycan Respublikasının milli təhlükəsizliyinin tərkib hissəsi olan ekoloji təhlükəsizliyin öyrənilməsi mühüm əhəmiyyət daşıyır. XX əsrin 90-cı illərində sovet imperiyasının süqutu ilə müşahidə olunan, dünyada baş vermiş qlobal dəyişikliklər Azərbaycan Respublikasının həm beynəlxalq, həm də daxili vəziyyətinə təsir göstərdiyindən ölkədə dünyanın yeni geosiyasi vəziyyətini nəzərə almadan səmərəli islahatların həyata keçirilməsini mümkünsüz edirdi. Milli təhlükəsizlik strateji əhəmiyyətli məsələ olduğuna görə problemlə bağlı nəzəri ümumiləşdirmələrin praktika ilə bağlanması zəruridir. Azərbaycanda ümummilli lider Heydər Əliyev diplomatiyasının gücü sayəsində xarici təhlükəsizliyin təmin olunmasının yeganə düzgün yolu - öz mənafeləri ilə digər ölkələrin mənafeləri arasında müəyyən balans, beynəlxalq təhlükəsizlik çərçivəsində müəyyən razılaşma əldə olunmuşdur.

Qeyd edək ki, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin mənbələrini Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikasının “Milli təhlükəsizlik haqqında” Qanunu, Milli Təhlükəsizlik Konsepsiyası, Hərbi Doktrina, Prezident fərmanları və Azərbaycan Respublikasının digər normativ aktları, Azərbaycan Respublikası tərəfindən bağlanan və ratifikasiya edilən beynəlxalq müqavilə və sazişlər təşkil edir. Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində ekoloji

təhlükəsizlik məsələsi öz əksini tapmışdır [1]. "Azərbaycan Respublikasının müstəqil, suveren, demokratik dövlət kimi öz inkişafı naminə milli təhlükəsizlik siyasətinin və strategiyasının hüquqi əsaslarının yaradılmasına yönəlmiş Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli 712-IIQ nömrəli Qanununda terror təhdidi və ona qarşı səmərəli mübarizə vəzifəsi haqqında konseptual müddəalar öz əksini tapmışdır. Qanunla beynəlxalq terrorçuluq Azərbaycan Respublikasının milli təhlükəsizliyinə əsas təhdid kimi nəzərdə tutulmuş, müvafiq olaraq, beynəlxalq terrorçuluğa və transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması üçün əsas tədbirlər qismində müəyyən edilmişdir" [2]. Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanununun bu sahədəki boşluğu aradan qaldırmaq üçün mühüm əhəmiyyəti vardı. Bu qanunda Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi sahəsində daxili və xarici təhdidlərin aşkara çıxarılması, daxili və xarici təhdidlər barədə xəbərdarlıq edilməsi və onların neytrallaşdırılması üzrə əməliyyat tədbirlərinin reallaşdırılması, suverenliyin və ərazi bütövlüyünün, sərhəd təhlükəsizliyinin təmin edilməsi, dövlətin hərbi potensialının kifayət qədər yüksək səviyyədə saxlanması və dəstəklənməsi, xarici dövlətlərin kəşfiyyat və pozucu fəaliyyətinin aşkara çıxarılması, xəbərdarlıq edilməsi və qarşısının alınması üzrə səmərəli tədbirlərin görülməsi, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyinin qarantı kimi dövlətin rolunun gücləndirilməsi, təhlükəsizlik sferasında qarşılıqlı faydalı beynəlxalq əməkdaşlığın genişləndirilməsi və s. əsas məsələlər açıqlanır. Həmçinin qanunilik, dövlətin maraqlarına riayət edilməsi, təhlükəsizliyin təmin edilməsi üzrə dövlətin məsuliyyəti, beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya, təhlükəsizliyin bütün növlərinin vəhdəti, qarşılıqlı əlaqəliyi və balanslaşdırılması Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin əsas prinsipləridir.

Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli, 2198 №-li Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası" dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi məqsədilə hazırlanmışdır. Qərb və Şərq dünyalarının qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycan Respublikası bir çox sivilizasiyaların müsbət məqamlarını özündə cəmləşdirmişdir. Avropanın mütərəqqi dəyərlərini paylaşan və Avro-Atlantik təhlükəsizlik arxitekturasının ayrılmaz bir halqası olan Azərbaycan Respublikası bu məkanın təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Azərbaycan Respublikasının yerləşdiyi və hazırda qeyri-sabit olan region dostluq və əməkdaşlıq ruhlu regional və beynəlxalq tərəfdaşlarla birlikdə inkişaf üçün səmərəli istifadə oluna biləcək geniş potensiala və imkanlara malikdir. Azərbaycan Respublikasının zəngin təbii ehtiyatları ölkənin çiçəklənməsi və milli rifahın təmin olunması üçün perspektivlər açır, onu beynəlxalq əhəmiyyətli enerji mənbəyi və beynəlxalq enerji təchizatı şəbəkəsinin mühüm tərkib hissəsinə çevirir. Azərbaycan Respublikasının və tərəfdaş ölkələrin iqtisadiyyatlarının inkişafına artıq töhfə verən beynəlxalq əhəmiyyətli nəqliyyat və kommunikasiya dəhlizlərinin inkişaf etdirilməsi, neft və qaz boru kəmərlərinin inşası region ölkələrinin əməkdaşlığının bariz nümunəsidir.

Ölkənin yerləşdiyi coğrafi şərait ona vacib üstünlüklər verməklə yanaşı, eyni zamanda onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir [3].

Azərbaycan Respublikasının qlobal proseslərdə iştirakı, yüksələn iqtisadi potensialı və uğurla davam edən enerji siyasəti milli təhlükəsizliyin qorunmasına təsir edən mühüm amillərdəndir. "Müasir dövrdə enerji təhlükəsizliyi məsələsi dünya dövlətləri üçün daha prinsipial məsələ kimi önə çıxmışdır. Xaricdən enerji asılılığının minimal həddə endirilməsi məsələsi hazırda ayrı-ayrı dövlətlərin yalnız milli təhlükəsizliyinin deyil, həm də müstəqil siyasət yeritməsinin vacib şərtinə çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri dünya əhəmiyyətli strateji layihələr olmaqla nəinki Azərbaycan Respublikasının, o cümlədən bütövlükdə Avropanın iqtisadi və enerji təhlükəsizliyinə mühüm töhfədir. Qeyd edilən tranzit vasitələrinə yaxın gələcəkdə Orta Asiya dövlətlərinin də inteqrasiyası Azərbaycanın Qərbin enerji təminatı və təhlükəsizliyində rolunun daha da artmasına təsir etmişdir" [5,s.69]. Əsrin müqaviləsi, Xəzərin karbohidrogen ehtiyatlarından birgə istifadə böyük güclərin və eləcə də dünyanın inkişaf etmiş dövlətlərinin nəzərini Azərbaycana yönəltdi. Belə layihələrin içərisində TRASEKA-nın Qərb-Şərq nəqliyyat dəhlizinin rolu danılmazdır. Bu, milli nəqliyyat sisteminin Avropa və dünya nəqliyyat sahələrinə qoşulması deməkdir. Böyük İpək yolu

proqramı çərçivəsində yerinə yetirilən investisiyalar, beynəlxalq yükdaşımaların artması Qafqazda siyasi və geopolitik şəraitin formalaşmasına birbaşa təsir göstərir. Respublikamızın beynəlxalq aləmlə əlaqələrinin genişləndirilməsi inkişaf etmiş ölkələrlə mütərəqqi texnika və texnologiyaların, inteqrasiyanın və ticarət münasibətlərinin həyata keçirilməsi, irihəcmli kapital qoyuluşu və investorların ölkəmizə gəlişinin sürətlənməsi Azərbaycanda əlverişli mühitin mövcudluğundan xəbər verir. Azərbaycanın qloballaşma proseslərində iştirakında azad iqtisadi zonaların (AİZ) yaradılması mühüm yer tutur və bununla bağlı 1994-cü ildən müxtəlif beynəlxalq və regional təşkilatlarla fəal iş aparılır. Ölkəmizin qloballaşma prosesində hansı səviyyədə yer tutması onun xarici siyasətinin əsas istiqamətlərinin, geosiyasətinin və beynəlxalq təşkilatlarla əlaqələrinin müasir dövrün tələblərinə cavab verməsindən asılıdır. Azərbaycan diplomatiyası praqmatik və tarazlaşdırılmış siyasət yeridərək (Ermənistan istisna olmaqla), həm qonşu ölkələrlə, həm də böyük dövlətlərlə partnyorluq münasibətlərinin yaradılmasına və inkişaf etdirilməsinə nail olmuşdur. Bununla da ölkəmizin qloballaşma şəraitində yeri və rolu haqqında müsbət qənaətə gəlmək olar. Azərbaycan Respublikasının Avrasiya məkanında strateji əhəmiyyətə malik olan coğrafi mövqeyi, xarici siyasəti və demokratik meyarlara sadiqliyi, dövlətin qloballaşma prosesinə cəlb edilməsini təmin edir, onun ölkəmizə verdiyi üstünlüklərdən yararlanmağa geniş imkanlar açır.

Qeyd edək ki, qloballaşmanın dünyanın inkişaf etmiş nəhəng dövlətlərinin maraqlarına xidmət etməsi, kosmopolitizmə qucaq açması səbəbindən öz milli-mənəvi dəyərlərimizə olan bağlılıq daha da güclənməlidir. Coğrafi mövqeyinə görə Azərbaycan dünyanın güc mərkəzlərinin maraqlarının toqquşduğu bölgə olduğundan qloballaşmanın özü ilə gətirdiyi transformasiya proseslərinin ən çox təsir göstərə biləcəyi regiondur. Qloballaşmanın geniş vüsət alması müstəqil Azərbaycanın gücləndirilməsi, onun dünya dövlətləri arasında yeri və rolu məsələsini aktuallaşdırır. Təhlükəsizlik problemi, qeyd olunduğu kimi, “bir çox dövlətlərin milli maraqlarının kəsişdiyi məkanda yerləşən Azərbaycan Respublikası üçün xüsusilə əhəmiyyətlidir. Ona görə də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə nail olduğu ilk gündən insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təşkili, dünya təhlükəsizlik sisteminə inteqrasiya istiqamətində tədbirlərin həyata keçirilməsi dövlət quruculuğunun mühüm vəzifələrinə çevrilmişdir” [5,s.21]. Qlobal iqlim dəyişikliyi şəraitində ekoloji təhlükəsizliyə təhdidlərdən biri də dünyada günü-gündən artmaqda olan münaqişə ocaqlarıdır. Belə münaqişələrdən biri də Ermənistanın ərazi iddiası nəticəsində yaranan və Ermənistanın hərbi təcavüzü ilə nəticələnən Ermənistan-Azərbaycan münaqişəsi idi. Ermənistan-Azərbaycan münaqişəsi Ermənistanın və onun beynəlxalq havadarlarının dəstəyi ilə Azərbaycan ərazilərinə haqsız iddiaları ilə başladıldı. XX əsrin 80-ci illərinin sonlarında Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq şəkildə ərazi iddiaları, etnik zəmində törətdiyi təxribatları və separatçı terror əməlləri nəticəsində minlərlə soydaşlarımız və hərbi qulluqçularımız vəhşicəsinə qətlə yetirildi. Keçmiş SSRİ rəhbərliyi bu münaqişənin qarşısını almadı, əksinə, birbaşa və dolayısı ilə Ermənistana dəstək verdi. Çünki hər iki xalq müstəqilliyə, azadlığa can atırdı. Xalqların azadlıq mübarizəsi keçmiş SSRİ rəhbərliyini qane etmirdi. “Nəticədə ilk mərhələdə tamamilə aradan qaldırılması mümkün olan münaqişə tədricən böyüyərək, iki xalqın tammiqyaslı qarşıdurmasına, geniş müharibəyə çevrildi” [8,s.204-205]. Ermənistan-Azərbaycan münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla Azərbaycan vətəndaşının taleyinə ciddi təsir göstərib. İki yüz min nəfər indiki Ermənistan Respublikasından, bir milyondan artıq Azərbaycan vətəndaşı isə öz əzəli doğma yaşayış yerlərindən qaçqın və məcburi köçkünə çevrildilər. Ermənistanın işğalçılıq siyasəti nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində ekologiya, biomüxtəliflik, meşə və yaşıllıqlar vəhşicəsinə məhv edilmiş, yandırılmış və təbii sərvətlərimiz talanmışdı. Ermənistan Azərbaycan ərazilərində sosial-iqtisadi talanla yanaşı, ekoloji təhlükəsizliyə zidd ekoloji terror da törətmişdir. İşğal altında olan ərazilərdə ekoloji terror, cəbhəyanı ərazilərdə yaşayan əhalinin sudan məhrum edilməsi, sərhədyanı çayların qabağının alınması, çirkləndirilməsi, su anbarlarına texniki qulluğun olmaması səbəbindən qəza vəziyyətinə düşməsi ilə ətrafdakı yaşayış məntəqələri və yüz minlərlə əhalinin təhlükə altında qalması Ermənistanın Azərbaycana qarşı törətdiyi təcavüzdür. 1994-cü il mayın 12-də Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibəsinin dayandırılması nəticəsində münaqişə tərəfləri arasında atəşkəs haqqında bəyannamə qəbul edildi. Atəşkəsin əldə olunmasından sonra münaqişənin sülh yolu ilə tənzimlənməsi istiqamətində, iyirmi altı il ərzində aparılan danışıqlara baxmayaraq, Azərbaycan torpaqları işğaldan azad edilməmişdir. Birləşmiş Millətlər Təşkilatının işğalçı Ermənistan qoşunlarının Azərbaycan

torpaqlarından qeyd-şərtsiz çıxarılması barədə verdiyi 822, 853, 874 və 884saylı qətnamələr yerinə yetirilmədi. Münaqişənin sülh yolu ilə tənzimlənməsi prosesinin nəticəsiz qalması bir çox səbəblərlə yanaşı (bir çox dövlətlərin milli maraqlarının üst-üstə düşməməsi), həm də erməni tərəfinin tarixi-psixoloji və siyasi vəziyyəti ilə əlaqədar idi.

27 sentyabr 2020-ci ildə Ermənistanın təxribatçı hərəkətlərinə cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi və öz ərazi bütövlüyünü 44 gün ərzində bərpa etməsi Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdı.10 noyabr tarixli Bəyannamənin imzalanması Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Bəyannamə uzun illər davam edən işğala son qoydu.

Beləliklə, Azərbaycan otuz ildən sonra ədaləti bərpa etdi. Ermənistanın işğalına son qoymaqla həm də davam edən böyük ekoloji terrorun qarşısını aldı. İşğal dövründə Ermənistan Azərbaycan torpaqlarında milli-mədəni irsi talayaraq məhv etmiş, şəhərləri, digər yaşayış məntəqələrini dağıtmış və bölgəyə ağır ekoloji ziyan vurmuşdur. İşğal müddətində Ermənistan tərəfindən Azərbaycan torpaqlarında yüz minlərlə mina, partlayıcı maddə basdırılıb. Ermənistan münaqişə dövründə Azərbaycana qarşı törətdiyi çoxsaylı müharibə cinayətlərinə, kütləvi qırğın və soyqırımı aktlarına, terrorçuluq fəaliyyətinə, vandalizmə görə hüquqi müstəvidə məsuliyyətdən yayına bilməyəcək, Azərbaycana vurduğu böyük sosial-iqtisadi zərərə görə kompensasiya ödəməyə məcbur ediləcək.

Müasir dövrdə ekoloji təhlükəsizlik bir çox ciddi təhdidlərlə qarşı-qarşıyadır. İnsan fəaliyyətinin nəticələri, ekosistemlərə və bioloji müxtəlifliyə ciddi təsirlər göstərir. Həmçinin iqlim dəyişikliyi, təbii resursların tükənməsi və sənaye fəaliyyətlərinin ətraf mühitə verdiyi zərər ekoloji təhlükəsizliyin qorunmasını çətinləşdirir.

Azərbaycanın ekoloji təhlükəsizliyi, təbii sərvətlərinin zənginliyi və müxtəlif təbii fəlakətlərə məruz qalma ehtimalı ilə bağlı olduqca vacibdir. Ölkənin ətraf mühitinin çirklənməsi, o cümlədən Xəzər dənizinin çirklənməsi, təbii fəlakətlərin-xüsusilə sellərin, torpaq sürüşmələrinin və zəlzələlərin artması, su çatışmazlığı kimi məsələlər, Azərbaycanın milli təhlükəsizliyini təhdid edir. Bu səbəbdən, Azərbaycanın milli təhlükəsizliyinin tərkib hissəsi olan ekoloji təhlükəsizliyinin qorunması hazırki şəraitdə mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın ekoloji təhlükəsizliyi ölkənin iqlim şəraiti, təbii sərvətləri və təbii fəlakətlərə qarşı mövcud olan həssaslığı ilə bağlı mühüm məsələləri əhatə edir. Ölkənin təbii sərvətləri zəngin olsa da, ekoloji problemlərin həll edilməsi bu zənginliklərin davamlı istifadəsi üçün vacibdir. Qeyd olunduğu kimi, Azərbaycanın, xüsusilə dağlıq və seysmik aktiv ərazilərdə yerləşməsi, təbii fəlakətlərin - zəlzələlərin təhdidini artırır. Zəlzələlər insanların həyat fəaliyyətini təhdid edir, eyni zamanda infrastrukturu dağıdır və təbii sərvətləri də zədələyir. Həmçinin iqlim dəyişikliyi nəticəsində Azərbaycan ərazisində quraqlıq, sel və digər ekstremal hava hadisələrinin sayı artmışdır. Belə hadisələr həm ətraf mühitin pozulmasına, həm də insanların sağlamlığına, onların həyat fəaliyyətinin təhlükəsizliyinə mənfi təsir edir. Əhalinin artması və su ehtiyatlarının azalması kənd təsərrüfatı ilə əlaqəli problemləri daha da kəskinləşdirir. Qeyd edək ki, Azərbaycanın su ehtiyatları son illərdə əhəmiyyətli dərəcədə azalmışdır. Su ehtiyatlarının azalmasına səbəb əhali artımı, insanların suya olan tələbatının artması, su təchizatı sistemlərindən səmərəsiz istifadə, quraqlıq və s. faktorlarla bağlıdır. Su çatışmazlığı kənd təsərrüfatı məhsullarının istehsalını çətinləşdirir və bu da öz növbəsində ərzaq təhlükəsizliyinə təhdid yaradır. Eyni zamanda təbii fəlakətlər, xüsusilə quraqlıq və sel hadisələri kənd təsərrüfatına zərər vuraraq ərzaq çatışmazlığına səbəb ola bilər. Azərbaycanın mühüm su ehtiyatlarından biri də həm ətraf mühitin, həm də ölkənin iqtisadiyyatı üçün əhəmiyyətli rola malik Xəzər dənizidir. Xəzər dənizindəki çirklənmə həm ekosistemlərə, həm də insanların sağlamlığına ciddi zərər verir. Suyunun çirklənməsi bir tərəfdən dənizdə çıxarılan neft məhsulu ilə bağlıdırsa, digər tərəfdən sənaye, kənd təsərrüfatı və şəhər həyatı ilə əlaqədar fəaliyyətlərdən qaynaqlanır. Bu çirklənmə həm balıqçılıq sənayesinə, həm də digər yerli iqtisadi fəaliyyətlərə zərər vurur. Dənizin çirklənməsi eyni zamanda suyun keyfiyyətinin pisləşməsinə və ətraf mühitin qeyri-sağlam vəziyyətə gəlməsinə səbəb olur. Son zamanlar iqlim dəyişikliyi nəticəsində Xəzər dənizində su səviyyəsinin enməsi müşahidə olunur. Buna səbəb iqlim dəyişikliyi nəticəsində Xəzər dənizinə tökülən çaylarda bolsululuğun azalması, ətraf ərazilərdə yaşayan əhalinin artımı, sənaye və kənd təsərrüfatının inkişafıdır. Avropa və Asiyanın kəsişməsində yerləşən Xəzər dənizinin qurumasının qarşısının almaq üçün regional və beynəlxalq səviyyədə işlər aparılmalıdır. Bundan əlavə, son zamanlarda dəniz suyunu duzsuzlaşdıran zavodlar tikilmiş və tikilməkdədir. Məsələn, əhalinin şirin suya olan tələbatını ödəmək və burada salınmış yaşıllıqların suvarılması üçün Salyan rayonunun Xıdırlı kəndi ərazisində dünya

standartlarına cavab verən zavod istifadəyə verilmişdir. Həmçinin Bakı şəhərinin və Abşeron yarımadasının içməli suya artan tələbatını ödəmək məqsədilə dəniz suyunun duzsuzlaşdırılması üçün Sumqayıt Kimya Sənaye Parkında gündəlik istehsal gücü 300 min kubmetr su olan zavod tikilməkdədir.

Beləliklə, su ehtiyatlarının idarə olunması və səmərəli istifadəsi məsələsi Azərbaycanın ekoloji təhlükəsizliyinin mühüm hissəsidir.

06 iyul 2024-cü ildə Şuşa şəhərində Azərbaycan Respublikasının təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının “Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması” mövzusunda qeyri-rəsmi Zirvə görüşü olmuşdur [9]. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Macarıstan, Şimali Kipr Türk Cümhuriyyətinin və Türk Dövlətləri Təşkilatının Baş katibinin iştirakı ilə keçirilən Zirvə görüşündə Qarabağ Bəyannaməsi imzalanmışdır. Bəyannamə təşkilata daxil olan ölkələrin, burada yaşayan xalqların mədəni, iqtisadi-siyasi inteqrasiyası ilə yanası, türk dövlətlərinin geosiyasi və təhlükəsizlik məsələlərində qlobal məkanda vahid güc kimi çıxış etməsini ehtiva edir. 2023-cü ildə “Türk dünyasının mədəniyyət paytaxtı” olmuş Şuşa şəhərində Zirvə görüşünün keçirilməsinin mühüm tarixi-siyasi əhəmiyyəti vardı. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası, artan siyasi-iqtisadi nüfuzu onu nəinki regional, hətta qlobal məkanda söz sahibinə çevirmişdir.

2024-cü il noyabrın 20-də COP29 çərçivəsində Yaşıl Zonada Milli QHT Forumu Pavilyonunda “Rüzgar” Ekoloji İctimai Birliyi Metsamor AES-in regional ekoloji təhdidləri ilə bağlı tədbir keçirib. İctimai Birliyin sədri AMEA-nın müxbir üzvü İslam Mustafayev tədbirdə çıxış edərək demişdir: “Ermənistanın qəza vəziyyətində olan, istismar müddəti çoxdan başa çatmış Metsamor Atom Elektrik Stansiyasının törətdiyi qlobal təhlükəyə diqqət yetirilməlidir. Bu stansiyanın fəaliyyətinin dərhal dayandırılması barədə Ermənistan hökuməti qarşısında məsələ qaldırılmalıdır. Metsamor Atom Elektrik Stansiyasının maye tullantıları son nəticədə transsərhəd çayı olan Araz çayına axıdılır. Bu stansiya su qıtlığı olan ərazidə yerləşir, köhnələn reaktoru soyutmaq üçün su dərinlikdəki quyulardan götürülür. Zəlzələlər zamanı yeraltı suların səviyyəsinin və axınların istiqamətinin dəyişməsi mümkündür, bu isə soyutma sisteminin etibarsızlığını aydın nümayiş etdirir. Metsamordan qaynaqlanaraq bəzi nüvə materiallarının qanunsuz ticarətinin aparılması da böyük narahatlıq doğurur. Ermənistan ərazisində 200-dən artıq radioaktiv mənbələr mövcuddur. Bu mənbələr sırasına müxtəlif növ izotoplar daxildir. Ermənistanda radioaktiv izotoplarla əlaqədar qaçaqmalçılıq faktları da mövcuddur. Metsamor Atom Elektrik Stansiyasının tullantılarının yerləşdirildiyi poliqonların artıq dolduğu və yeni nüvə tullantıları poliqonunun yaradılması göstərir ki, bu tullantıların yerləşdirilməsi ilə bağlı ciddi problemlər mövcuddur” [11].

Qeyd edək ki, Ermənistan Respublikasının köhnə texnologiya ilə işləyən, 1976-cı ildə inşa edilmiş, 9.5 ballıq seysmik zonada cəmi 8 bala hesablanmış Metsamor Atom Elektrik Stansiyasında qəza baş verərsə, bu, region üçün ekoloji fəlakəti qaçılmaz edir. AES-də baş verə biləcək hər hansı qəza yalnız Ermənistanın deyil, bütün Cənubi Qafqaz və Yaxın Şərq ölkələrinin də ciddi ziyan görəcəyi ehtimal olunur. Beləki, Metsamor AES Türkiyə sərhədindən 16 km, İran sərhədindən 60 kim, Azərbaycan və Gürcüstan sərhədlərindən 120 km məsafədə yerləşir. Region dövlətlərin ekoloji təhlükəsizliyini nəzərə almayan Ermənistan dövləti yalnız bölgədə yaşayan xalqların birgə səyləri nəticəsində Metsamor Atom Elektrik Stansiyasının fəaliyyətini dayandırmağa məcbur edilə bilər. Bu stansiya nəinki Azərbaycan, Türkiyə, Ermənistan, eləcə də bütün region üçün böyük nüvə təhlükəsi yaradır. Ermənistan hökumətinin AES ilə bağlı məsuliyyətsiz davranışları, dünya ictimaiyyətini aldatmağa yönəlmiş yalan hesabatları Cənubi Qafqaz bölgəsini növbəti Çernobıl və Fukusima qəzalarına doğru sürükləyir. Hazırda Ermənistan dövləti Metsamor Atom Elektrik Stansiyasını istismardan çıxarmaq, beynəlxalq ictimaiyyətin gözlədiyi qayda və prosedurlara əməl etmək əvəzinə, hər dəfə onun ömrünü süni şəkildə uzatmağa çalışır. Azərbaycan dövləti dəfələrlə beynəlxalq platformalarda AES-in fəaliyyətini davam etdirməsi ilə bağlı ciddi narahatlığını bildirib, təəssüflər olsun ki, aidiyyatı beynəlxalq qurumlar Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinə ciddi təsir göstərə bilməmişdir. Onu da qeyd etməliyik ki, Azərbaycan və Ermənistan BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd Ətraf Mühitə Təsirin Qiymətləndirilməsinə dair Konvensiyasının üzvləridir. “Bu Konvensiyaya görə, potensial təhlükəli layihələrin ətraf mühitə təsirinin qiymətləndirilməsi yalnız dövlət daxilində deyil, həm də bu obyektlərin təsirinə məruz qala biləcək qonşu

ölkələrdə ictimai müzakirələri əhatə etməlidir. Lakin Ermənistan beynəlxalq müqavilələrin tələblərini tamamilə nəzərə almır” [12].

Ermənistan hökumətinin, üçtərəfli razılaşmaya görə, üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsi - Zəngəzur dəhlizinin açılması nəinki Azərbaycan və Ermənistanın, bütövlükdə Cənubi Qafqaz regionunun sosial-iqtisadi inkişafına səbəb olardı. Zəngəzur dəhlizi qlobal əhəmiyyətli strateji layihə olmaqla, Şərqlə Qərbi birləşdirən Avrasiya quru körpüsündə əsas tranzit marşrutuna çevrilmək potensialına malikdir. Dəhliz regional nəqliyyat və logistikanın gələcəyinin formalaşdırılmasında mühüm rol oynamaqla bərabər, eyni zamanda Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqlində xüsusi əhəmiyyətə malikdir. Həmçinin dəhlizin açılması Cənubi Qafqaz regionunun ictimai-siyasi quruluşuna müsbət təsir göstərməklə yanaşı, daha çox əlaqəli və bir - birindən asılı olan bölgəyə töhfə verə bilər ki, bu da potensial olaraq millətçi əhval ruhiyyənin yumşaldılmasına, aradan qalxmasına və ümumi iqtisadi maraqlara diqqətin yönəlməsinə səbəb olacaq. Məlum olduğu kimi, 8 avqust 2025-ci ildə Amerika Birləşmiş Ştatlarında Ağ Evdə prezident Trampın vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması uzun müddət davam edən münaqişədən sonra ikitərəfli iqtisadi əlaqələri gücləndirəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanı Ağ Evdə keçirilən Sülh sazişi layihəsinin imzalanma mərasimində salamlayan Donald Tramp demişdir: “Uzun müddətdir, 35 ildir ki, onlar döyüşüblər, indi də dostdurlar və onlar uzun müddət dost olacaqlar” [13].

Zəngəzurdan keçəcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun (TRIPP) açılması nəinki ABŞ, Azərbaycan və Ermənistan arasında üçtərəfli iqtisadi əlaqələri gücləndirəcək, Çindən başlayan “Bir yol-bir kəmər” layihəsini əhatə edən dövlətlərin də Avropaya açılan logistik imkanlarına yol açacaqdır. Nəzərə alsaq ki, Azərbaycanın Şimal-Cənub marşrutunda da əsas tranzit ölkə kimi çıxış etməsi perspektivdə Rusiya Federasiyasının da TRİPP marşrutu ilə Aralıq dənizinə çıxış imkanları yarada biləcəyini labüd edir. Bu isə Azərbaycanı regionda böyük bir nəqliyyat qovşağına çevirir ki, bunun da ölkəyə gətirəcək gəlirlərini triumfal bir iqtisadi uğur hesab etmək mümkündür.

**Nəticə**

Cənubi Qafqazdakı münaqişələr nəinki ekoloji təhlükəsizliyə bütövlükdə region dövlətlərinin milli təhlükəsizliyinə təhdiddir. Qafqaz dövlətlərinin milli təhlükəsizliyi, ərazi bütövlüyü, dövlət suverenliyi, onlarda yaşayan milli azlıqların qanuni hüquqları nə qədər etibarlı müdafiə olunarsa, buradakı iqtisadiyyatın, siyasətin və mədəniyyətin Ümumqafqaz preriotetlərinin həyati qabiliyyəti bir o qədər böyük əhəmiyyət kəsb edə bilər. Cənubi Qafqazda xalqlar arasında mədəniyyətlərarası, dinlərarası dialoq münaqişələrin aradan qalxmasına səbəb ola bilər. Azərbaycan tolerant və multikultural dövlətdir. Ölkədə etnik-mədəni müxtəliflik multikulturalizm siyasəti ilə tənzimlənir. Azərbaycan dövləti bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etmiş və etməkdədir. Belə tədbirlərdən biri də 11-22 noyabr 2024-cü il tarixində paytaxt Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransıdır. 1995-ci ildən başlayaraq hər il keçirilən COP (COP-Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı) kimi tanınan bu konfrans Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə sayca 29-cu konfransıdır (qeyd edək ki, COP 28 2023-cü ildə Birləşmiş Ərəb Əmirliyində keçirilmiş, COP 30-a isə 2025-ci ildə Braziliya dövləti ev sahibliyi edəcəkdir). 25 dekabr 2023-cü il tarixində Azərbaycan Respublikasının Prezidentinin Sərəncamına əsasən Azərbaycan Respublikasında 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan edilmişdir [10].

Azərbaycan Respublikasının 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair qəbul etdiyi Milli Proqramda ölkəmizin təmiz ətraf mühit və yaşıl artım ölkəsi olduğu qeyd olunub. Hazırda ölkədə, xüsusən də işğaldan azad olunmuş ərazilərdə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

“Əhalinin ekoloji cəhətdən təmiz şirin su ilə təmin edilməsi ekoloji təhlükəsizliyin və insanlar üçün normal ekosistemlərin yaradılmasının əsas istiqamətlərindən biridir. Bu vəzifənin yerinə yetirilməsi üçün 20 iyun 2007-ci ildə respublikada “əhalinin ekoloji cəhətdən təmiz şirin su ilə təmin edilməsinin yaxşılaşdırılması sahəsində bəzi tədbirlər haqqında” Proqram qəbul edilmişdir” [4. s.641]. Ölkənin bütün yaşayış məntəqələri keyfiyyəti üzərində texniki nəzarət aparılan təmiz şirin su ilə təmin

edilmiş, rayon və şəhərlərdə su ilə təminat üçün təmizləyici qurğular yaradılması və çirkab sularının təmizlənməsi sahəsində layihələr davamlı olaraq həyata keçirilir.

“Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına əsasən, son on ildə meşəlik ərazilərinin ümumi sahəsi 1 milyon hektardan çox olmuş (ölkə ərazisinin 11.8 %-i), 100 min hektardan çox sahədə meşəbərpa işləri aparılmış, yeni meşələr salınmış, 90 milyona yaxın ağac əkilmiş, 300 milyondan çox əkin materialı yetişdirilmiş, 2 milyon ton toxum tədarük edilmiş, meşə fonduna daxil olmayan ərazilərdə 20 milyondan çox ağac və kol əkilmişdir.

Azərbaycan Prezidentinin “Magistral avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılması” (30 oktyabr 2007-ci il) və “Bakı şəhərinin yaşıllaşdırılması sahəsində əlavə tədbirlər haqqında” (3 aprel 2009-cu il.) sərəncamlarının icrası üzrə son 5 ildə 8 iri yaşıllaşdırma layihəsi həyata keçirilmiş, 1500 hektardan çox ərazidə yaşıllaşdırma işləri aparılmış, 2 min hektardan çox ərazidə damcı suvarılma sistemi tətbiq edilmiş, Abşeron yarımadası ərazisində ümumilikdə 2 milyona yaxın ağac və kol əkilmişdir”[6.s.113]. Ekoloji təhlükəsizlikdən irəli gələrək işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması, meşə və yaşıllıqların salınması ilə bərabər, “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir. Həmçinin işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub. Ölkəmizdə neft-qaz sahəsinin inkişaf etməsinə baxmayaraq yaşıl enerji növlərinin yaradılması, onun dünya bazarlarına nəqli hazırda dövlətimizin enerji siyasətinin başlıca istiqamətlərindəndir. Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsi layihəsi (Yaşıl dəhliz) inkişaf etməkdədir.

Beləliklə, milli təhlükəsizliyin mühüm sahəsi olan ekoloji təhlükəsizlik, insanların sağlamlığını, yaşayış şəraitini və ümumilikdə rifahını qorumaq məqsədini güdür. Eyni zamanda Azərbaycanın ekoloji təhlükəsizliyi, təbii sərvətlərin və ətraf mühitin qorunmasına, eyni zamanda əhalinin sosial rifahına xidmət etməlidir. Bu məqsədlə həm daxili, həm də beynəlxalq səviyyədə fəaliyyətlər həyata keçirilməlidir. Ekoloji təhlükəsizlik gələcəkdə hər bir dövlətin iqtisadi və sosial sabitliyi üçün əsas amil olaraq qalacaqdır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
2. Azərbaycan Respublikasının “Milli təhlükəsizlik haqqında” Qanunu. Bakı; 2004.
3. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası (Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir).
4. Eminov Z.N. Ətraf mühitin qorunması davamlı inkişafın əsas istiqamətlərindən biridir. Azərbaycanın müasir ekocoğrafi şəraitinin dəyişməsində antropogen amilin rolu. BDU-nun 90 illik yubileyinə həsr olunan konfrans materialı. Bakı: 2009,793s.
5. Qasımov C., Nağıyev N. Milli təhlükəsizliyin əsasları. Bakı: 2015, 407.
6. Məmmədov V., Yusifov E. Ekoloji menecment. Dərs vəsaiti (2 cilddə). I cild. Bakı: Mega Basım, 2014, 384s.
7. Məmmədov V., Yusifov E. Ekoloji menecment. Dərs vəsaiti (2 cilddə). II cild. Bakı: Mega Basım, 2014, 428s.
8. Orucov Ə.A. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu-XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt). Bakı: Avropa, 2012, 251s.
9. https://xalqqazeti.az/uploads/pdf-files/93907/xalqqazeti-07.07.2024.pdf
10. https://president.az/az/articles/view/62737.
11.https://ngoagency.gov.az/az/post/1098/cop29-da-metsamor-aes-nin-regional-ekoloji-tehdidleri-ile-bagli-yan-tedbir-kecirilib. 12.https://eco.gov.az/az/nazirlik/xeber?newsID=12457
13.https://www.azerbaijan-news.az/index.php/az/posts/detail/qlobal-media-donald-tramp-ilham-eliyev-ve-nikol-pasinyan-arasinda-gorusu-diqqet-merkezinde-saxlayirnbsp-1754735040/366765

**Rəyçi:f.f.d., dos. Həbib Hüseynov**